Dezinformasiya kodları qırılır

Azərbaycanın dirçələn gücünün təcəssümü olan Qarabağ tarixi zəfərlərin, müasir inkişafın, diplomatik görüşlərin və qlobal dialoqların məkanına çevrilib. Bir zamanlar işğal altında olan bu müqəddəs torpaqlar artıq sülhə, əməkdaşlığa və tərəqqiyə çağırış edən beynəlxalq tədbirlərin ünvanıdır. İyulun 19-da Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forum bunun bariz nümunəsidir. Forum bu il ilk dəfə olaraq Xankəndidə - Zəfər Meydanında yeni inşa edilmiş möhtəşəm Konqres Mərkəzində təşkil olundu. Bu seçim təkcə coğrafi deyil, həm də siyasi və mənəvi mesajdır: Azərbaycan öz suverenliyini təmin edib və indi bu torpaqlarda qlobal dialoqların əsas mərkəzini formalaşdırır.

"Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" adlı Forumda dünyanın 52 ölkəsindən 140-a yaxın qonaq, o cümlədən 30-dan çox informasiya agentliyinin və 80 media qurumunun nümayəndəsi iştirak edib. Tədbirin bu miqyasda təşkili Azərbaycanın beynəlxalq informasiya məkanında artan nüfuzunun və media sahəsindəki fəallığının göstəricisidir. Forumun builki mövzusu rəqəmsal transformasiya, süni intellekt və media dayanıqlılığına həsr olunması iştirakçıların müasir medianın qarşılaşdığı yeni çağırışları, informasiya axınında dezinformasiyanın artması, jurnalistikanın etik problemləri, müstəqillik və obyektivliyin qorunması məsələlərini özündə ehtiva edir. Burada ən mühüm məqamlarından biri isə Prezident İlham Əliyevin iştirakçılardan gələn suallara birbaşa cavab verməsi oldu. Dövlət başçısının bir çox media nümayəndəsi ilə açıq dialoqa girməsi, tədbirə olan diqqəti daha da artırdı. Prezident İlham Əliyev çıxışında media mühitindəki sürətli dəyişikliklərdən danışaraq süni intellektin informasiya axınında yaratdığı transformasiyaları qeyd etdi və Azərbaycanın bu sahədə atdığı addımları xüsusi vurğuladı. Həmçinin Ermənistanla münasibətlərin normallaşması, postmünaqişə dövründə regionun gələcəyi və Azərbaycanın sülh təşəbbüsləri barədə fikirlərini paylaşdı.

III Şuşa Qlobal Media Forumu çərçivəsində çıxış edən Prezident İlham Əliyev Azərbaycan informasiya məkanının haradan hara gəldiyini, nəyə qarşı mübarizə apardığını və hələ də ədalətsiz yanaşmalara məruz qaldığını bir daha gündəmə gətirdi. Bu, sadəcə medianın fəaliyyətinə dair texniki və siyasi analiz deyildi, ölkəmizin beynəlxalq informasiya mühitində haqq səsinin necə təhrif edildiyini və məqsədli şəkildə necə susdurulmağa çalışıldığını ortaya qoyan bəyanat idi. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, xüsusilə tanımadığınız ölkə ilə bağlı ilk təəssüratınız formalaşanda sizə təqdim olunan informasiya mənbəyi medianın özü olur. Belə vəziyyətdə medianın obyektivliyi, qərəzsizliyi və məsuliyyətli yanaşması həyati əhəmiyyət daşıyır. Lakin Qərb ictimaiyyətində Azərbaycana qarşı mövcud olan rəy, çox zaman qərəzli və birtərəfli informasiya siyasətinin məhsuludur: "...ölkəmiz haqqında müxtəlif saxta hekayətlərin söylənilməsi və şayiələrin yayılmasında, Azərbaycanı qara rəngdə təsvir etməsi üçün diktə edən Avropanın siyasi spektrində olan bəzi qaydalarda və prosedurlardadır. Bunun bir neçə səbəbi mövcuddur. Onlardan birini yaddan çıxarmalı deyilik. O, ABŞ-da çox fəal olan birləşmiş erməni lobbi qruplarıdır. Siz və biz bilirik ki, Qərbdə, o cümlədən Almaniyada bəzi media ABŞ-ın təsiri altındadır. Yəni, erməni mediasının təsiri ilə anti-Azərbaycan dairələrindən reportajlar daxil olanda, birmənalı olaraq, biz Azərbaycana qarşı ümumi media hücumunu görürük. Biz bununla artıq bir neçə dəfə rastlaşmışıq". ABŞ və Avropada, xüsusilə də Fransa və Almaniyada çox güclü erməni diaspor təşkilatları və lobbi qrupları fəaliyyət göstərir. Bu qurumlar təkcə siyasi dairələrə deyil, eyni zamanda media sahəsinə də güclü təsir göstərmək imkanlarına malikdirlər. Onların maliyyə dəstəyi ilə bəzi media qurumlarında Azərbaycan əleyhinə məqalələrin yerləşdirilməsi sistemli xarakter alıb. Qeyri-hökumət təşkilatları və "müstəqil analitik mərkəzlər" adı altında fəaliyyət göstərən qurumlar da bəzən bu informasiya blokadasının bir hissəsinə çevrilirlər. Belə ki, 2015-ci ildə keçirilən Avropa Oyunları və ötən il COP29-a hazırlıq dövründə baş verən media hücumları bu problemin nə qədər dərinə işlədiyini göstərir. Avropa Oyunları zamanı "BBC", "The Guardian", "Der Spiegel" və digər Qərb media nəhəngləri eyni vaxtda insan hüquqları, ifadə azadlığı və korrupsiya ittihamlarını tirajlayaraq oyunların idman xarakterindən çox siyasi spekulyasiya mövzusuna çevrilməsinə nail oldular. COP29 ərəfəsində isə aparıcı Qərb qəzetləri "Washington Post", "The New York Times", "Newsweek", "Le Monde" və "Le Figaro" gündəlik şəkildə Azərbaycan əleyhinə materiallar yayımlayaraq tədbirin ev sahibi olan ölkəni gözdən salmağa cəhd etdilər. Burada məqsəd Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu zəiflətmək və onun uğurlarına kölgəyə salmaqdır.

Ölkə başçısının çıxışında xüsusi vurğuladı ki, Qərbdə bəzi güc mərkəzlərini narahat edən əsas məsələ Azərbaycanın müstəqil siyasi xəttidir. Ölkəmiz nə zaman ki, öz qərarlarını özü verməyə, təzyiqlərə boyun əyməməyə başladı, dərhal informasiya təzyiqləri də gücləndi. Bəzi beynəlxalq dairələr hələ də postsovet ölkələrini "idarə olunan demokratiyalar" kimi görmək istəyirlər. Azərbaycan isə bu stereotipə sığmır, həm enerji siyasətində, həm diplomatiyada, həm də informasiya sahəsində müstəqilliyini qorumağa çalışan, öz maraqlarına uyğun siyasi kurs aparan dövlətdir. Bu isə birmənalı qarşılanmır.

Dövlət başçısı Donald Trampın məşhur "fake news" (saxta xəbər) ifadəsini xatırladaraq Qərb mediasının iç üzünü açdı. Bir çox zaman bütöv bir media şəbəkəsi məqsədli şəkildə eyni tezislə Azərbaycan əleyhinə informasiya yayır. Bu, sadəcə fərdi jurnalistlərin yanaşması deyil, koordinasiya olunmuş informasiya kampaniyasıdır.

Ötən il COP29-a ev sahibliyi edən ölkəmizin ünvanına səslənən qərəzli fikirlər və sistemli qaralama kampaniyaları əslində, sadəcə ekoloji tədbir ətrafında yaranmış fikir ayrılığı deyildi, uzun illərdir davam edən, siyasi və informasiya təməli üzərində qurulmuş məkrli narrativlərin davamı idi. Qərb mediası bu dövrdə ölkəmizin neft ölkəsi olmasını əsas arqumentə çevirərək Azərbaycanın iqlim sammitinə ev sahibliyini riyakarlıqla təqdim etdi. Halbuki bu yanaşma, əslində, Azərbaycanın "yaşıl enerji" sektorunda atdığı real addımları, transsərhəd enerji əməkdaşlığını, Xəzər dənizi və Qarabağ bölgəsində həyata keçirdiyi günəş və külək enerji layihələrini tamamilə görməzdən gəlmək idi. Ölkəmiz COP29-a ev sahibliyi etmək hüququnu qazandığı gündən etibarən, Qərbin nüfuzlu media orqanlarında (xüsusilə "The Guardian", "Le Monde", "The New York Times", "Washington Post", "Figaro") "greenwashing" (yaşıl boyanma) ittihamları artmağa başladı. Onların əsas tezisi belə idi: "Azərbaycan bir neft ölkəsidir, o, iqlim sammitinə ev sahibliyi etməməlidir." Bu yanaşma həm ikili standart, həm də birbaşa təxribat idi, çünki indiyədək COP tədbirlərinə ev sahibliyi edən ölkələrin əksəriyyəti neft ixrac edən dövlətlər olub (məsələn, BƏƏ, Qətər, Norveç). Amma heç biri bu qədər kütləvi hücumlarla üzləşməmişdi. Çünki məsələ neftdə deyildi. Məsələ Azərbaycanın kimliyində, siyasətində və getdiyi yolda idi. Qərb mediasının diqqətində təkcə "enerji siyasəti" deyil, Prezident İlham Əliyev xüsusi yer tutur. Bu cür yanaşmalar Azərbaycanın beynəlxalq imicini kölgələməyə yönəlmiş kampaniyanın tərkib hissəsidir. Amma burada əsas məqsəd təkcə şəxsiyyət hücumu deyil, Azərbaycan rəhbərliyinin heç bir geosiyasi təlimata tabe olmayan, öz yolunu özü seçən, nə Qərbin, nə də Şərqin "vassalı" olmayan siyasətinə qarşı "cəzalandırma yanaşmasıdır".

ABŞ-da Donald Trampın yenidən prezident seçilməsi ilə bu informasiya siyasətində ciddi dəyişiklik baş verib. Prezident Tramp "fake news" anlayışını geniş şəkildə ictimaiyyətə təqdim edən ilk liderlərdən biri kimi Qərb mediasının sistemli təxribatlarını açıq şəkildə ifşa edib. Bu kontekstdə, Trampın "Washington Post" və "New York Times" kimi orqanlara qarşı tənqidləri, USAID-in fəaliyyətinin dayandırılması ilə nəticələndi, çünki bu qurum uzun illərdir dünyada, o cümlədən Azərbaycanda da "qeyri-hökumətçi" adı altında siyasi gündəmləri manipulyasiya etməklə məşğul olmuşdu. Donald Trampın rəhbərliyi dövründə erməni lobbisinin bəzi cəhdləri, xüsusilə ABŞ-da anti-Azərbaycan rezolyusiyalarının keçirilməsi bir çox hallarda iflasa uğradı. Çünki Tramp Qafqaz bölgəsini siyasi təsir zonası deyil, əməkdaşlıq üçün iqtisadi və geosiyasi tərəfdaş kimi dəyərləndirir. Qərb mediasının Azərbaycana qarşı sərgilədiyi qərəzin arxasında güclü maliyyə və informasiya resurslarına malik olan erməni diaspor təşkilatlarının fəaliyyətləri də xüsusi rol oynayır. Halbuki, Azərbaycanın bu gün regionda sülh təşəbbüsləri ilə çıxış etməsi, Ermənistanla sərhədlərin müəyyənləşdirilməsi prosesinə başçılığı və post-münaqişə dövrünü konsolidasiyaya çevirmək istəyi heç bir obyektiv Qərb mediasında yer almır.

Bu kontekstdə III Şuşa Qlobal Media Forumunda əsas hədəflərdən biri də medianın sülh quruculuğundakı rolunu önə çıxarmaq idi. Xankəndidə baş tutan beynəlxalq tədbir bir daha sübut etdi ki, informasiya vasitələri təkcə məlumat ötürən mexanizm deyil, həm də cəmiyyətlər arasında anlaşmanı təşviq edən körpüdür. Qarabağ "greenwashing" deyil, "green leading"dir, yəni "yaşıl enerji"yə liderlik edir. Forum iştirakçıları arasında müstəqil jurnalistlər, media ekspertləri, redaktorlar və akademik dairələrdən olan şəxslər bu istiqamətdə ortaq strategiyalar formalaşdırmağa çalışdılar. Maraqla qarşılanan panel müzakirələrdən biri də süni intellektin jurnalistikaya təsiri oldu. Yeni dövrün reallıqları fonunda "robot jurnalistika", "ağıllı xəbər axınları", "saxta xəbərlər" (deepfake) kimi məsələlər qlobal narahatlıq doğurur. Ekspertlər bu texnologiyaların faydaları ilə yanaşı, yaratdığı etik və hüquqi riskləri də vurğuladılar. Azərbaycan tərəfi isə süni intellekt sahəsində milli strategiyanın hazırlandığını və bu texnologiyaların məsuliyyətli tətbiqinin əsas prioritetlərdən olduğunu bildirdi. III Şuşa Qlobal Media Forumu təkcə media peşəkarlarının görüş yeri deyil, həm də Azərbaycanın siyasi, texnoloji və mədəni gücünün təqdimat platformasıdır. Xankəndidə keçirilən tədbir bir daha göstərdi ki, ölkəmiz müasir dünyanın ritmini tutan, media və informasiya çağırışlarına cavab verən, qlobal dialoqun fəal iştirakçısı olan dövlətdir. Forum sülhə, inkişaf və şəffaflığa çağırış, Qarabağın səsini dünyaya çatdıran platformadır.

Ləman TƏHMƏZ,
"Respublika".